# Ətraf mühitin mühafizəsində innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi əsas hədəflərdəndir

***Ölkəmizin 13-15 noyabr tarixlərində "Caspian Ecology 2019" 10-cu yubiley Beynəlxalq Ətraf Mühit sərgisinə ev sahibliyi etməsi Azərbaycanın malik olduğu imkanların, xüsusilə, ekoloji sahədə əldə etdiyi təcrübənin təqdimatında əhəmiyyətli rol oynayacaq***




**Bütün sahələrdə zəngin təcrübəyə malik olan Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər, sərgilər üçün ideal məkan kimi qəbul olunması səbəbsiz deyil. Hərtərəfli inkişafı dövlət siyasətinin əsası kimi dəyərləndirən dövlətimiz kompleks tədbirlərin həyata keçirilməsinin prioritetliyini daim öndə saxlayır və bunu biri-birindən əhəmiyyətli sənədlərin qəbulu ilə təsdiqləyir. Ən əsası hər ilin konkret bir sahənin adı ilə bağlanması davamlı inkişafa geniş yol açan addımlar sırasındadır.**

Ölkəmizin 13-15 noyabr 2019-cu il tarixlərində "Caspian Ecology 2019" 10-cu yubiley Beynəlxalq Ətraf Mühit sərgisinə ev sahibliyi etməsi də Azərbaycanın malik olduğu imkanların, xüsusilə, ekoloji sahədə əldə etdiyi təcrübənin təqdimatında əhəmiyyətli rol oynayacaq.

2010-cu ildən etibarən hər il keçirilən sərgidə bu dəfə də ətraf mühitin mühafizəsi sahəsində innovativ texnologiyaları tətbiq edən beynəlxalq və yerli şirkətlər, dövlət və qeyri-hökumət təşkilatları bir araya gələcək. Ətraf mühitin mühafizəsi sahəsində innovativ texnologiyalarla tanış olmaq, işgüzar münasibətlər qurmaq və təcrübə mübadiləsi aparmaq üçün hər kəs Beynəlxalq Ətraf Mühit "Caspian Ecology 2019" yubiley sərgisini səbirsizliklə gözləyir.

Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində mühüm işlər görülür. Bu işlərin təməli ulu öndər Heydər Əliyev hələ hakimiyyətinin birinci dövründə qoyulub. Belə ki, Ümummilli Liderin Azərbaycana hakimiyyəti dövrlərində ağacəkmə kampaniyaları həyata keçirilib, Bakı şəhərinin müxtəlif yerlərində yaşıllıq zolaqları salınıb. Azərbaycanın ayrı-ayrı bölgələrində yaşıllıqların salınması, ekoloji tarazlığın qorunması davamlı xarakter alıb. Son 16 ildə bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısı İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın noyabrın 11-də Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni "Gənclik" parkında "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirakı da deyilənlərin təsdiqidir.

Həmin tədbir bir daha bu reallığı təsdiqlədi ki, dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, insanların rahat, təhlükəsiz, əmin-amanlıq şəraitində yaşaması, sağlamlıqlarının qorunması istiqamətində atılan addımlar, icra olunan layihələr öz uğurlu nəticələrini verir. Ölkəmizdə həyata keçirilən ekoloji siyasət nəticəsində yeni yaşıllıqların salınması, mövcud olanların qorunması ilə yanaşı, əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağacəkmə aksiyalarının keçirilməsi ekoloji durumun yaxşılaşdırılmasına mühüm töhfələrdir.

Ümumilikdə ekoloji tarazlığın qorunması dünyanı düşündürən, narahat edən məsələlərdəndir. Bu gün dünyanın əsas çağırışları sırasında məhz bu məsələ dayanır. Təbii ki, ekologiyanın sağlamlaşdırılması ilə bağlı dünyanı ciddi düşündürən məsələlər Azərbaycan üçün də xarakterikdir. Bütövlükdə 2030-cu ilə qədər dünyanın dəyişdirilməsi, transformasiyası adı altında Birləşmiş Millətlər Təşkilatının böyük qlobal layihəsi hazırlanıb həyata keçirilir. Bu layihədə qarşıya qoyulan məqsədlər sırasında ekoloji tarazlığın bərpası əsas yer utur. 2030-cu ilə qədər bütün dünya dövlətlərinin, o cümlədən Azərbaycanın bu qlobal layihənin həyata keçirilməsinə qoşulması nəzərdə tutulur.

Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair Dövlət proqramları, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramı uğurla yerinə yetirilir. Beynəlxalq ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların təşkili və ekoloji şəbəkənin yaradılması istiqamətində görülən işlər də bu silsilədəndir. Bu faktı qeyd etmək kifayətdir ki, 2010-cu il ölkəmizdə "Ekologiya İli" elan edildi. Dövlətimizin başçısı İlham Əliyev bu çağırışı etmişdir ki, görülən işlər davamlı olmalı, yalnız "Ekologiya İli" ilə məhdudlaşmamalıdır. "Ekologiya İli" çərçivəsində, eləcə də sonrakı illərdə ölkəmizdə milyonlarla ağacın əkilməsi, yeni parkların salınması və dövlətimizin başçısı İlham Əliyevin bu kampaniyalarda iştirakı ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisi kimi dəyərləndirilir. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikada aparılan sosial-iqtisadi islahatların tərkib hissəsindən biridir.

Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunması istiqamətində həyata keçirdiyi layihələr ölkə ictimaiyyəti tərəfindən təqdir edilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Hərəyə bir ağac əkək" layihəsi çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci ildən fəaliyyətə başlayan İDEA - Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Kampaniyası çərçivəsində ölkəmizdə ətraf mühitin qorunması sahəsində görülən işlər Azərbaycanda ekoloji problemlərə verilən dəyərin göstəricilərindəndir.

Ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan Yeni Azərbaycan Partiyasının da yaşıllıq zolaqlarının genişləndirilməsinə, ətraf mühitin mühafizəsinə töhfələri davamlıdır. Təkcə cari ilin ötən dövründə atılan addımlara diqqət yetirmək kifayətdir. Məlum olduğu kimi, Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında imzalanan birgə Fəaliyyət Planına əsasən maarifləndirmə işinin daha da gücləndirilməsi məqsədilə "Yay məktəbi" təşkil edildi. 20 nəfər könüllü gəncin, 20 nəfər YAP-ın gənc fəalının və 20 nəfər isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin gənc mütəxəssislərinin iştirakı ilə keçirilən "Yay məktəbi"ndə ekoloji tarazlığın qorunmasının bu günümüz və gələcəyimiz üçün əhəmiyyəti ətraflı şəkildə diqqətə çatdırıldı. Bir faktı da qeyd edək ki, ötən il Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə "700 min ağac əkək" layihəsi həyata keçirilmişdir. Gənclərin ətraf mühit sahəsində bilik və bacarıqlarının artırılması, gənc nəslin ekoloji maarifləndirilməsi və ictimaiyyətin ətraf mühitin birgə mühafizəsinə cəlb olunması məqsədi ilə ali təhsil müəssisələrinin tələbə və müəllim kollektivləri ilə görüşlər keçirilməsində də məqsəd insanların ətraf mühitin mühafizəsinə münasibətini dəyişmək, ictimaiyyətin diqqətini ekoloji problemlərin həllinə yönəltmək, əhalinin bu sahədə şüur və təfəkkürünü inkişaf etdirməklə təbiəti qorumağın mümkünlüyünü diqqətə çatdırmaqdır.

Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə cari ilin ölkəmizdə "Nəsimi İli" elan edilməsi çərçivəsində həyata keçirilən tədbirlər sırasında da ekoloji tarazlığın qorunmasına yönələn layihələr əhəmiyyətli yer tutur. Partiyanın bu istiqamətdə də tədbirləri silsilə xarakter daşıyır. Belə ki, Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə bir gün ərzində 650 min ağacın əkilməsi ilə bağlı irəli sürdüyü təşəbbüsü dəstəkləyir və bu prosesdə fəal iştirak edəcək. Bu tədbirlər YAP-ın sosial layihələrdə fəal iştirakına, ən əsası Azərbaycanın daha da möhkəmlənməsinə, çiçəklənməsinə töhfələr vermək istəyini ortaya qoyur.

Qısa təhlil "Caspian Ecology 2019" 10-cu yubiley Beynəlxalq Ətraf Mühit sərgisinin ölkəmiz üçün əhəmiyyətinə işıq salır. Hər belə tədbir yuxarıda da qeyd etdiyimiz kimi, yeni əməkdaşlıq əlaqələrinin yaranmasına, səylərin birləşdirilməsi və təcrübə mübadiləsi fonunda hədəflərə yüksək səviyyədə nail olmağa əsas yaradır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***